# BMT-nin Azərbaycandakı ofisinin rəhbəri ADAU-da olmuşdur

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Muhammad Nasar Hayatın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Dövlət Aqrar Universitetində olmuşdur.**

Universitetin rektor vəzifəsini icra edən Zəfər Qurbanov ADAU-nun maddi-texniki bazası, beynəlxalq əlaqələri və ikili diplom proqramları haqqında qonaqlara ətraflı məlumat vermişdir. Diqqətə çatdırmışdır ki, bu il universitetin 100-dən çox tələbəsi Erasmus+ proqramı çərçivəsində təhsil almaq üçün Avropanın müxtəlif ölkələrinə göndərilmişdir. FAO ilə birgə həyata keçirilən layihələr barədə məlumat verən Z.Qurbanov mövcud əməkdaşlığın daha sıx şəkildə davam etdirilməsinin vacibliyinə toxunmuşdur.

Muhammad Nasar Hayat Azərbaycan Dövlət Aqrar Universitetində olmaqdan məmnun olduğunu bildirmiş və demişdir ki, bu, onun ali təhsil ocağına ilk səfəri olmasına baxmayaraq, təəssüratları yüksək səviyyədədir.



Görüş çərçivəsində əməkdaşlıq perspektivləri, mütəxəssis mübadiləsi və birgə layihələrin həyata keçirilməsi məsələləri də müzakirə edilmişdir. Görüşdən sonra qonaqlar universitetin müasir laboratoriyalarına, tələbə parkına, tələbə evlərinə və heyvandarlıq təsərrüfatlarına baş çəkmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***